# Sahil bulaq abidəsinin açılışı olub

**Hərbçi olmaq şərəflidir, hərbçi olmaq xalqın qüruru olmaq deməkdir. Sinəsində qəhrəman oğullar böyüdən Şərur rayonunda da hərb sahəsini seçən, bu adı şərəflə daşıyan, iftixarı bilən oğullar çoxdur. O igid, cəsur, qorxmaz oğullardan biri də Dərvişlər kəndinin qəhrəman oğlu, Cəlilovlar ailəsinin son beşiyi Cəlilov Sahil Oktay oğludur.**

Naxçıvan MR Şərur rayonu Dərvişlər kəndində qəhrəman şəhidimiz, XTQ əsgəri Cəlilov Sahilin əziz xatirəsinə ucaldılmış bulaq abidənin açılışı olub.

Şəhid ailələri, dövlət rəsmiləri və ictimaiyyət nümayəndələrinin iştirak etdiyi tədbirdə əvvəlcə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik yad edilib, Dövlət Himni səsləndirilib.

Azətbaycan Respublikası Prezidentinin Naxçıvandakı səlahiyyətli nümayəndəliyinin əməkdaşı Qoşqar Kamilov, Şərur rayonu İcra hakimiyyətinin başçısı Kamal Cəfərov çıxış edərək torpaqlarımızın ərazi bütövlüyünün təmin olunmasında Şərur rayonunun qəhrəman övladlarının böyük rəşadət göstərdiyini, döyüşlərdə öndə gedən vətənpərvər övladlardan olduqlarını qeyd ediblər.

Digər çıxışçılar döyüşçü Cəlilov Sahilin həyatı və döyüş yolundan bəhs edib. Dərvişlər kənd tam orta məktəbinin şagirdləri vətənpərvərlik mövzusunda yazılmış şeirləri bədii qiraət etdikdən sonra alqış sədaları altında bulaq abidənin açılışı olub. Şəhidin xatirəsinə ehsan süfrəsi açılıb.

Sahil Cəlilov 17 may 1998-ci ildə Şərur rayonunun Dərvişlər kəndində anadan olub. Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Bölməsində müddətdən artıq həqiqi hərbi xidmət edirdi.





Sahil Cəlilov 2020-ci il sentyabrın 27-də Azərbaycan Silahlı Qüvvələri tərəfindən Ermənistan işğalı altında olan ərazilərin azad edilməsi və Azərbaycanın ərazi bütövlüyünün bərpa olunması üçün başlanan İkinci Qarabağ müharibəsində iştirak etmişdir. Füzulinin və Xocavəndin azadlığı uğrunda gedən döyüşlərdə baş kəşfiyyatçı olaraq vuruşmuşdur. Sahil Cəlilov 21 oktyabr 2020-ci ildə Xocavənd rayonunun Tuğ kəndi istiqamətində döyüş tapşırığının yerinə yetirilməsi zamanı şəhadətə ucalıb.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarına qatılan və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün, Şuşa, Füzuli, Xocavənd rayonlarının işğaldan azad edilməsi uğrunda aparılan döyüş əməliyyatlarına qatılaraq şəxsi igidliyi və şücaəti nümayiş etdirdiyinə görə, hərbi xidmətlərinə görə Azərbaycan Prezidenti İlham Əliyevin Sərəncamlarına əsasən Sahil Cəlilov ölümündən sonra "Vətən uğrunda", "Şuşanın azad olunmasına görə","Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Hərbi xidmətlərə görə" medalları ilə təltif edilib.

"Ölüm bizə nə yaxındır, nə uzaq. Biz ölümün özüyük Bir gün Vətən uğrunda şəhid olsaq, bu bizim üçün ən böyük şərəfdir",- deyə yazan 23 yaşlı Sahil adının mənasını, şəhidliyi həyatının şüarı seçdi.

***Bəxtiyar ƏLİYEV***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

**Hərbi and.- 2023- cü il.- 17 noyabr.- № 42.- S. 14.**